| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 04.01.2001 |
| QEYDİYYAT NÖMRƏSİ | 4 |
| ADI | Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısının təsdiq edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2001, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 53) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 01.01.2001 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 090.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısının təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar 2001-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 4 yanvar 2001-ci il
4

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2001-ci il 4 yanvar tarixli 4 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin**

**S İ Y A H I S I**[1]

1. Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin güzəşt hüququ aşağıdakı sənədlər əsasında müəyyənləşdirilir:

1.1. Azərbaycan Respublikasının *Vətən müharibəsi* Qəhrəmanları:[2]
Azərbaycan Respublikası *Vətən müharibəsi* Qəhrəmanlarının təltif edilmə barədə vəsiqəsi;
*1.1-1. Azərbaycanın Milli qəhrəmanları:*
*Azərbaycan Respublikası Milli qəhrəmanlarının təltif edilmə barədə vəsiqəsi;* [3]
1.2. Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanları:
Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının təltif edilmə barədə vəsiqəsi;
1.3. "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslər:
"Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilmə barədə vəsiqə;

1.4. *orqanizminin funksiyaları 61-100 faiz pozulmuş müharibə ilə əlaqədar əlilliyi olan şəxslər:*[4]
*orqanizminin funksiyaları 61-100 faiz pozulmuş müharibə ilə əlaqədar əlilliyi olan şəxs barədə əlilliyi olan şəxslərin reyestrindən çıxarışı;*[5]
*Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin* vəsiqəsi;
*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yerli qurumunun və ya "DOST" mərkəzinin* arayışı:[6]
1.5. həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları (ərləri):
*Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin* vəsiqəsi;
*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yerli qurumunun və ya "DOST" mərkəzinin* arayışı;
Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, ~~*Milli Təhlükəsizlik Nazirliyinin,*~~ Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, *Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin* arayışları;[7]
1.6. 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər:
orden və medallarla təltif olunma haqqında vəsiqələr;
1.7. qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteran adı almış şəxslər:
müharibə veteranı vəsiqəsi;
*Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin* arayışı;
Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, ~~*Milli Təhlükəsizlik Nazirliyinin*~~, Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, *Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin* arayışları:
1.8. Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində, digər radiasiya qəzaları nəticəsində,

habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslər:

tibbi-sosial ekspert komissiyasının *qərarı*;[8]

*Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin* , Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, ~~Milli Təhlükəsizlik Nazirliyinin,~~ Ədliyyə Nazirliyinin və Daxili İşlər Nazirliyinin, *Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin* arayışları:

*1.9. orqanizminin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər (müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər istisna olmaqla), 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər;*[9]

*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yerli qurumunun və ya "DOST" mərkəzinin* arayışı;

tibbi-sosial ekspert komissiyasının *qərarı*;[10]

1.10. həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və arvadları (ərləri):

*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yerli qurumunun və ya "DOST" mərkəzinin* arayışı;

*Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin* , Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, ~~Milli Təhlükəsizlik Nazirliyinin,~~ Ədliyyə Nazirliyinin və Daxili İşlər Nazirliyinin, *Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin* arayışları;

1.11. 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri):

*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yerli qurumunun və ya "DOST" mərkəzinin* arayışı;[11]

*Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin* , hərbi hissənin arayışları;

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, ~~*Milli Təhlükəsizlik Nazirliyinin,*~~ Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, *Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin* arayışları;

1.12. Əfqanıstana və döyüş əməliyyatları aparılan başqa ölkələrə göndərilmiş hərbi qulluqçular və təlim-yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəlilər:

*Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin* arayışı;

hərbi hissənin, *hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil* müəssisənin arayışları;[12]

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, ~~*Milli Təhlükəsizlik Nazirliyinin,*~~ Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, *Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin* arayışları;

1.13. daimi qulluq tələb edən *18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizminin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə* baxan və onunla birlikdə yaşayan valideynlərdən *(o cümlədən övladlığa götürən şəxslərdən)* biri (özlərinin istəyi ilə), arvad (ər), himayəçi və ya qəyyum;[13]

himayədə olma faktı barədə məhkəmə orqanlarının qərarı:

ər və arvaddan birinin güzəştdən istifadə edib-etməməsi barədə onların əmək kitabçasının olduğu işəgötürənin arayışı;

uşağın doğulması haqqında şəhadətnamənin surəti:

birgə yaşamaq haqqında mənzil-kommunal istismar sahələrinin yaxud icra hakimiyyəti nümayəndəliklərinin arayışları;

*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yerli qurumunun* arayışı;

*övladlığagötürmə barədə məhkəmə qərarının surəti;*[14]

1.14. məcburi köçkünlərə və onlara bərabər tutulan şəxslər:

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin ~~qaçqın və ya~~ məcburi köçkün statusu haqqında vəsiqəsi;[15]

1.15. himayədə olanlara görə əmək haqqından tutulan gəlir vergisindən güzəşt aşağıdakı sənədlərə əsasən verilir:

ər və arvaddan birinin güzəştdən istifadə edib-etməməsi barədə onların əsas iş yerindən işəgötürənin arayışı;

Azərbaycan Respublikası Vergilər Nazirliyinin təsdiq etdiyi formada yerli icra hakimiyyəti və ya bələdiyyə tərəfindən verilmiş arayışları.

2. Güzəşt hüququna malik olan şəxslər yuxarıda adları çəkilən sənədlərdən birini təqdim etməlidirlər.

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

1. 07 oktyabr 2002-ci il tarixli 152 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 10, maddə 635**)
2. 2 iyun 2003-cü il tarixli 7 3 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-ci il, 6, maddə 342**)
3. 20 avqust 2008-ci il tarixli **192** nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 787**)
4. 29 mart 2010-cu il tarixli **53** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 3, maddə 264**)
5. 25 iyun 2010-cu il tarixli **125** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 6, maddə 569**)
6. 2 oktyabr 2013-cü il tarixli **279** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 4 oktyabr 2013-cü il, 219; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 10, maddə 1200)**
7. 22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585** )
8. 28 noyabr 2016-cı il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 noyabr 2016-cı il, 264, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1976)**
9. 7 mart 2019-cu il tarixli **79** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 513**)
10. 9 iyul 2019-cu il tarixli **296** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 13 iyul 2019-cu il, 150 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1319)**
11. 5 mart 2021-ci il tarixli **63** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 13 mart 2021-ci il, 56 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 282)**
12. 19 aprel 2021-ci il tarixli **102** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 21 aprel 2021-ci il, 82 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 405)**
13. 2 oktyabr 2021-ci il tarixli **290** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 6 oktyabr 2021-ci il, 214 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1159)**
14. 23 dekabr 2021-ci il tarixli **411** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 dekabr 2021-ci il, 284 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1535)** *(2022-ci il iyulun 1-dən qüvvəyə minir)*
15. 25 avqust 2022-ci il tarixli **334** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı 31 avqust 2022-ci il, "Xalq" qəzeti 2 sentyabr 2022-ci il, 188)**

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

---

[1] 2 oktyabr 2013-cü il tarixli **279** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 4 oktyabr 2013-cü il, 219; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 10, maddə 1200)** ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.4-cü bəndinin üçüncü abzasında, 1.5-ci bəndinin ikinci abzasında, 1.7-ci, 1.8-ci, 1.10-cu və 1.11-ci bəndlərinin üçüncü abzaslarında, 1.12-ci bəndinin ikinci abzasında "**hərbi komissarlığın**" sözləri "**Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin** " sözləri ilə, 1.12-ci bəndinin üçüncü abzasında "**hərbi təhsil**" sözləri "**hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil** " sözləri ilə əvəz edilmişdir.

[2] 2 oktyabr 2021-ci il tarixli **290** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 6 oktyabr 2021-ci il, 214 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1159)** ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.1-ci bəndin birinci və ikinci abzaslarında "**Milli**" sözü "**Vətən müharibəsi**" sözləri ilə əvəz edilmişdir.

[3] 2 oktyabr 2021-ci il tarixli **290** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 6 oktyabr 2021-ci il, 214 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1159)** ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"na yeni məzmunda 1.1-1-ci bənd əlavə edilmişdir.

[4] 7 mart 2019-cu il tarixli **79** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 513**) ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.4-cü bəndin birinci abzasında **"qrup müharibə əlilləri"** sözləri **"dərəcə müharibə ilə əlaqədar əlilliyi olan şəxslər"** sözləri ilə əvəz edilmişdir.
23 dekabr 2021-ci il tarixli **411** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 dekabr 2021-ci il, 284 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1535)** ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.4-cü bəndin birinci və ikinci abzaslarında "**I və II dərəcə**" sözləri "**orqanizminin funksiyaları 61-100 faiz pozulmuş** " sözləri ilə əvəz edilmişdir.

[5] 7 mart 2019-cu il tarixli **79** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 513**) ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.4-cü bəndin ikinci abzasında "**qrup müharibə əlilinin vəsiqəsi**" sözləri "**dərəcə müharibə ilə əlaqədar əlilliyi olan şəxs barədə əlilliyi olan şəxslərin reyestrindən çıxarışı"** sözləri ilə əvəz edilmişdir.

[6] 28 noyabr 2016-cı il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 noyabr 2016-cı il, 264, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1976)** ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.4-cü bəndinin dördüncü abzasında, 1.5-ci bəndinin üçüncü abzasında, 1.9-cu, 1.10-cu, 1.11-ci bəndlərinin ikinci abzaslarında və 1.13-cü bəndinin altıncı abzasında "**rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzinin**" sözləri "**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbəsinin**" sözləri ilə əvəz edilmişdir.

5 mart 2021-ci il tarixli **63** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 13 mart 2021-ci il, 56 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 282)** ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.4-cü bəndinin dördüncü abzasında, 1.5-ci bəndinin üçüncü abzasında, 1.9-1.11-ci bəndlərinin ikinci abzaslarında və 1.13-cü bəndinin altıncı abzasında "**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında**" sözləri "**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində**" sözləri ilə və "**şəhər, rayon şöbəsinin**" sözləri "**yerli qurumunun**" sözləri ilə əvəz edilmişdir.

[7] 07 oktyabr 2002-ci il tarixli **152** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 10, maddə 635**) ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.5-ci yarımbəndinin dördüncü abzasında, 1.7-ci yarımbəndinin dördüncü abzasında, 1.8-ci yarımbəndinin üçüncü abzasında, 1.10-cu yarımbəndinin üçüncü abzasında, 1.11-ci yarımbəndinin dördüncü abzasında və 1.12-ci yarımbəndinin dördüncü abzasında "**Daxili İşlər Nazirliyinin**" sözlərindən sonra "**Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin**" sözləri əlavə edilmişdir.

2 iyun 2003-cü il tarixli **73** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-ci il, 6, maddə 342**) ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.5-ci yarımbəndinin dördüncü abzasında, 1.7-ci yarımbəndinin dördüncü abzasında, 1.8-ci yarımbəndinin üçüncü abzasında, 1.10-cu yarımbəndinin üçüncü abzasında, 1.11-ci yarımbəndinin dördüncü və 1.12-cü yarımbəndinin dördüncü abzasında "**Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin**" sözlərindən sonra "**Dövlət Sərhəd Xidmətinin**" sözləri əlavə edilmişdir.

22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585**) ilə "Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.5-ci, 1.7-ci, 1.8-ci, 1.10-cu, 1.11-ci və 1.12-ci bəndlərindən "**Milli Təhlükəsizlik Nazirliyinin,**" sözləri çıxarılsın və həmin bəndlərə "**Dövlət Sərhəd Xidmətinin**" sözlərindən sonra "**, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin**" sözləri əlavə edilmişdir.

25 avqust 2022-ci il tarixli **334** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı 31 avqust 2022-ci il, "Xalq" qəzeti 2 sentyabr 2022-ci il, 188)** ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.5-ci, 1.7-ci, 1.11-ci, 1.12-ci bəndlərinin dördüncü abzasına, 1.8-ci, 1.10-cu bəndlərinin üçüncü abzasına "**Xarici Kəşfiyyat Xidmətinin**" sözlərindən sonra "**, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin**" sözləri əlavə edilmişdir.

[8] 7 mart 2019-cu il tarixli **79** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 513**) ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.8-ci bəndin ikinci abzasında "**rəyi və ya arayışı**" sözləri "**qərarı**" sözü ilə əvəz edilmişdir.

[9] 20 avqust 2008-ci il tarixli 192 nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 787**) ilə 1.9-cu bəndin birinci abzasında **«əlillər (müharibə əlillərindən başqa)»** sözlərindən sonra **«və ya sağlamlıq imkanları məhdud uşaqlar»** sözləri əlavə edilmişdir.

7 mart 2019-cu il tarixli **79** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 513**) ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.9-cu bəndin birinci abzasında "**qrup əlillər (müharibə əlillərindən başqa) və ya sağlamlıq imkanları məhdud uşaqlar**" sözləri "**dərəcə əlilliyi olan şəxslər (müharibə ilə əlaqədar əlilliyi olan şəxslər istisna olmaqla)** " sözləri ilə əvəz edilmişdir.

19 aprel 2021-ci il tarixli **102** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 21 aprel 2021-ci il, 82 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 405)** ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nda 1.9-cu bəndə "**(müharibə ilə əlaqədar əlilliyi olan şəxslər istisna olmaqla)**" sözlərindən sonra "**, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar** " sözləri əlavə edilmişdir.

23 dekabr 2021-ci il tarixli **411** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 dekabr 2021-ci il, 284 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1535)** ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.9-cu bəndin birinci abzası yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1.9. I və II *dərəcə əlilliyi olan şəxslər (müharibə ilə əlaqədar əlilliyi olan şəxslər istisna olmaqla), sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.*~~

[10] 7 mart 2019-cu il tarixli **79** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 513**) ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.9-cu bəndin üçüncü abzasında "**rəyi və ya arayışı**" sözləri "**qərarı**" sözü ilə əvəz edilmişdir.

[11] 9 iyul 2019-cu il tarixli **296** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 13 iyul 2019-cu il, 150 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1319)** ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.4-cü bəndinin dördüncü abzasına, 1.5-ci bəndinin üçüncü abzasına və 1.9-1.11-ci bəndlərinin ikinci abzaslarına "**şəhər, rayon şöbəsinin**" sözlərindən sonra "**və ya "DOST" mərkəzinin**" sözləri əlavə edilmişdir.

[12] 29 mart 2010-cu il tarixli **53** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 3, maddə 264**) ilə 1.12-ci bəndinin üçüncü abzasında «**hərbi-tədris**» sözləri «**hərbi təhsil**» sözləri ilə əvəz edilmişdir.

[13] 20 avqust 2008-ci il tarixli 192 nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 787**) ilə 1.13-cü bəndin birinci abzasında **«uşaqlıqdan»** sözü **«sağlamlıq imkanları məhdud uşağa»** sözləri ilə əvəz edilmişdir.

7 mart 2019-cu il tarixli **79** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 513**) ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.13-cü bəndində "**qrup əlilə**" sözləri "**dərəcə əlilliyi olan şəxsə**" sözləri ilə əvəz edilmişdir.

19 aprel 2021-ci il tarixli **102** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 21 aprel 2021-ci il, 82 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 405)** ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri

hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nda 1.13-cü bəndin birinci abzasına "**məhdud**" sözündən sonra "**18 yaşınadək**" sözləri və "**valideynlərdən**" sözündən sonra "**(o cümlədən övladlığa götürən şəxslərdən)**" sözləri əlavə edilmişdir.

23 dekabr 2021-ci il tarixli **411** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 dekabr 2021-ci il, 284 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1535**) ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.13-cü bəndin birinci abzasında "**sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa və ya I dərəcə əlilliyi olan**" sözləri "**18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizminin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[14] 19 aprel 2021-ci il tarixli **102** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 21 aprel 2021-ci il, 82 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 405**) ilə "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nda 1.13-cü bəndə yeni məzmunda yeddinci abzas əlavə edilmişdir.

[15] 25 iyun 2010-cu il tarixli **125** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 6, maddə 569**) ilə təsdiq edilmiş "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.14-cü bəndinin ikinci abzasından "**qaçqın və ya**" sözləri çıxarılmışdır.